005-12/2023
01.12.2023

**Müqavilə sifarişi (sifariş forması)**

1. Sifarişin nömrəsi (hazırda sifarişçi şöbə üzrə ardıcıllıq):
2. Sifarişin tarixi: **06.12.2023**
3. Müvafiq xərc maddəsi: əlavə xərc
4. Malın (işin və ya xidmətin) təyinatı: **5 Dekabr 2023-cü il tarixində keçiriləcək "Ermənistandan didərgin salınmış Azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışını təmin etmək: qlobal kontekst və ədalətli həll" mövzusunda tədbiri**
5. Müqavilə imzalanması təklif olunan mal (iş və ya xidmət) haqqında məlumatlar:

Malın adı/ işin və ya xidmətin təsviri: **Led ekran icarəsi**

Qarşı tərəflə razılaşdırılmış qiymət *(qiymət təklifi və ya Qiymət Razılaşma Protokolu əlavə olunmaqla)*: **Cəmi 2 265.60 AZN ƏDV daxil**

Malın (işin və ya xidmətin) həcmi: **QRP-də qeyd olunub**

Malın (işin və ya xidmətin) texniki spesifikasiyaları: **QRP-də qeyd olunub**

Malın çatdırılma şərtləri ("İnkoterms") və ünvanı /işin görüləcəyi və ya xidmətin göstəriləcəyi yer: **Xidmət**

Malın çatdırılma (işin görülmə və ya xidmətin göstərilmə) müddəti: **Dərhal**

Ödəniş şərtləri: **100% Sonradan**

Digər:

**6.** Qarşı tərəf haqqında məlumatlar:

Adı: **"M.Z" MMC**

Müqavilə imzalamaq səlahiyyətinə malik şəxs barədə məlumatlar *(müvafiq qaydada təsdiq edilmiş və ya leqallaşdırılmış təsdiqedici sənəd əlavə edilməklə, soyadı, adı, vəzifəsi)*: **Qasımova Üzlüfət Ramazan**

Qeydiyyat sənədləri və təsisçilər barədə məlumatlar, tələb olunduğu təqdirdə müvafiq lisenziyalar, akreditasiya sənədləri və digər sənədlər *(müvafiq qaydada təsdiq edilmiş və ya leqallaşdırılmış sənəd əlavə olunmaqla)*: ***Təqdim edilib***

Rekvizitləri *(əlavə olunmalıdır)*. ***Təqdim edilib***

**7.** Sifarişçi struktur bölmə:

Rəhbərin adı, soyadı: **Fuad Musazadə (V.İ.E) Təchizat şöbəsinin müdiri**

Rəhbərin imzası ______________________

**Qeyd:** İcraçı struktur bölmə tərəfindən Müqavilə predmetinə uyğun olaraq bu sifariş formasında nəzərdə tutulanlardan başqa sənədlər tələb oluna bilər.

**Xidmətlərin göstərilməsi üzrə**
**Müqavilə № 005-12/2023**

**Bakı şəhəri** **"01" 12 2023-cü il**

Azərbaycan Respublikası qanunvericiliyinə əsasən təsis olunan və Əsasnaməsi əsasında fəaliyyət göstərən İşlər müdiri Ramin Quluzadə şəxsində təmsil olunan Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi (bundan sonra "Sifarişçi") Azərbaycan Respublikası qanunvericiliyinə əsasən təsis olunan və Nizamnamə əsasında fəaliyyət göstərən direktoru Üzlüfət Qasımovanın şəxsində təmsil olunan "M.Z." Məhdud Məsuliyyətli Cəmiyyəti, (bundan sonra "İcraçı") birlikdə "Tərəflər", ayrılıqda isə "Tərəf" adlandırılaraq, aşağıdakılarla bağlı razılaşırlar.

**Maddə 1. Müqavilənin predmeti**

1.1. "İcraçı", "Sifarişçi"nin tapşırığına əsasən "Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıtmasına şərait yaratmaq: qlobal kontekst və ədalətli həll" mövzusunda beynəlxalq konfransın keçirilməsi tədbirinin təşkili üçün Qiymət Razılaşma Protokolunda qeyd olunan LED ekranlarının icarə xidməti (bundan sonra "Xidmətlər") "Sifarişçi"nin tapşırığına uyğun icra edir.
1.2. "Sifarişçi" bu Müqavilənin ayrılmaz tərkib hissəsi olan Qiymət Razılaşma Protokounda nəzərdə tutulmuş məbləği "İcraçı"ya ödəyir.

**Maddə 2. Müqavilənin dəyəri və hesablaşma qaydası**

2.1. Müqavilənin dəyəri 2 265,60 AZN (iki min iki yüz altmış beş manat, altmış qəpik) (vergilər daxil) təşkil edir. Müqavilə dəyərinin ətraflı təsviri bu Müqavilənin ayrılmaz tərkib hissəsi hesab olunan Qiymət Razılaşma Protokolunda qeyd edilmişdir.
2.2. "Sifarişçi" bu Müqavilə üzrə göstərilmiş xidmətlərin məbləğini, hesab-faktura təqdim edildikdən sonra 15 (on beş) bank günü ərzində bank hesabına köçürmə yolu ilə, manatla ödəyir.

**Maddə 3. Müqavilənin qüvvədəolma müddəti**

3.1. Bu Müqavilə imzalandığı andan qüvvəyə minir və 31 dekabr 2023-cü ilədək qüvvədədir. Müqavilə üzrə Xidmətlər Sifarişçinin sifariş etdiyi tarixlərdə göstərilir.
3.2. Tərəflər Müqavilə üzrə Xidmətlərin göstərilməsi müddətinə dair qrafik tərtib edilə bilər, qrafik bu müqaviləyə əlavə edilir. Tərəflərin qarşılıqlı razılığı əsasında qrafikə müvafiq dəyişikliklər edilə bilər.
3.3. "İcraçı" müqavilə şərtlərini pozarsa (hüququ pozulan Tərəfin pozulmuş hüququ bərpa edilməsi mümkün ola bilən olarsa) və hüququ pozulan Tərəf baş vermiş hüquq pozuntusu və pozulmuş hüquqların bərpasını tələb edən bildirişini qəbul etdikdən sonra 30 (otuz) gün ərzində heç bir tədbir görməzsə; və ya istənilən ardıcıl 4 ay ərzində 2 dəfədən çox olmaqla, eyni və ya mahiyyət etibarilə oxşar şəkildə müqavilə öhdəliklərini pozarsa, "Sifarişçi" bildiriş təqdim etmədən müqaviləyə dərhal birtərəfli şəkildə xitam verə bilər.
3.4. Bu Müqavilə Tərəflərin qarşılıqlı razılığı əsasında Tərəflərdən hər hansı birinin bu Müqavilənin ləğv edilməsi barədə bir (1) ay əvvəl verilmiş yazılı xəbərdarlığı ilə xitam edilə bilər; bu şərtlə ki, Tərəflər bu Müqavilənin ləğvinədək mövcud olan bütün öhdəliklərini yerinə yetirmiş olsunlar.
3.5. "Sifarişçi" tərəfindən bu Müqaviləyə birtərəfli qaydada xitam verildikdə "Sifarişçi" "İcraçı"nın xitam tarixinə qədər bu müqavilənin icrası ilə əlaqədar çəkdiyi xərcləri ödəyir. Bu bəndin şərtləri "İcraçı"nın təqsirinə görə müqaviləyə xitam verilməsi halları istisna olunmaqla tətbiq oluna bilər.

## Maddə 4. Tərəflərin hüquq və vəzifələri

4.1. **"Sifarişçi"nin hüquq və vəzifələri:**
4.1.1. "İcraçı"dan bu müqavilənin tələblərinə və "Sifarişçi"nin tapşırığına uyğun icra edilmiş Xidmətləri qəbul etmək;
4.1.2. Bu müqavilə üzrə Xidmətlər tam icra edilmədikdə, faktiki görülmüş Xidmətlərin dəyəri istisna olmaqla digər ödənilmiş məbləğin geri qaytarılmasını tələb etmək;
4.1.3. "İcraçı"dan Xidmətlərin icrası və gedişatı barədə ətraflı məlumat almaq;.
4.1.4. "İcraçı"nın işinə maneçilik törətməmək və işin normal icrası üçün lazımi şərait yaratmaq;
4.1.5. "İcraçı"dan Xidmətlərin vaxtında və keyfiyyətli yerinə yetirilməsini tələb etmək, görülmüş Xidmətlərin nəticələri ilə razı olmadıqda əsaslandırılmış iradlarını "İçracı"ya bildirmək;
4.1.6. "İcraçı"ya Xidmətlərin yerinə yetirilməsi üçün lazım olan sənədləri təqdim etmək;
4.1.7. Görülmüş Xidmətlərin dəyərini təqdim olunmuş hesab-faktura əsasında "İcraçı"nın bank hesabına ödəmək.

4.2. **"İcraçı"nın hüquq və vəzifələri:**
4.2.1. "İcraçı" işlərin icrasına başlamazdan əvvəl bu Müqavilənin qüvvədə olduğu müddət ərzində görülən Xidmətlərlə əlaqədar qanunvericilik üzrə tələb olunan bütün icazə və lisenziyalara, müvafiq sertifikatlara malik olmaq və qanunvericiliklə tələb olunan qaydalara əməl etmək; "İcraçı" qeyd edilən öhdəliklərin yerinə yetirilməməsi nəticəsində "Sifarişçi"yə dəyən zərəri ödəməyi öhdəsinə götürür.
4.2.2. Bu Müqavilənin 1.1-ci bəndində göstərilmiş Xidmətləri yerinə yetirmək, tərəflər arasında təsdiq olunmuş aktla "Sifarişçi"yə təhvil vermək;
4.2.3. İşlərin icrası zamanı "İcraçı"nın səhvi nəticəsində baş vermiş qüsurları öz işçi qüvvəsi və maliyyə vəsaiti hesabına aradan qaldırmaq;
4.2.4. "Sifarişçi" tələb etdiyi halda Xidmətlərdə müəyyən olunmuş qüsurlara dair "Sifarişçi"nin nümayəndələrinin iştirakı ilə akt tərtib etmək;
4.2.5. Xidmətləri Sifarişçinin tapşırığına, bu Müqavilədə nəzərdə tutulan şərtlərə uyğun və keyfiyyətlə, və razılaşdırılmış müddətlərdə həyata keçirmək;
4.2.6. Bu Müqavilə ilə üzərinə götürdüyü öhdəlikləri vaxtında və lazımınca icra etmək;
4.2.7. İcra olunmuş Xidmətləri təhvil-qəbul aktı ilə təhvil vermək;
4.2.8 "Sifarişçi"nin tələbi ilə görülən işlərə dair məlumat vermək;
4.2.9. Xidmətlərin icrasında hər hansı problem yarandıqda dərhal "Sifarişçi"yə məlumat vermək.

## Maddə 5. Xidmətlərin təhvil verilməsi qaydası

5.1. Xidmətlərin təhvili və qəbulu hər iki tərəfin səlahiyyətli nümayəndələrinin imzaladığı təhvil-qəbul aktı əsasında həyata keçirilir.
5.2. Təhvil-qəbul aktının "Sifarişçi" tərəfindən imzalanması "İcraçı"nın Xidmətləri müqavilə şərtlərinə uyğun icra etdiyini təsdiq edir. Lakin bu bənd "Sifarişçi"nin təhvil-qəbul zamanı görülməsi mümkün olmayan qüsurlara dair tələb irəli sürmək hüququnu istisna etmir.

## Maddə 6. Tərəflərin məsuliyyəti

6.1. "İcraçı" tərəfindən bu müqavilənin müddəaları əhəmiyyətli dərəcədə pozulduqda ("Əhəmiyyətli Pozuntu"), "İcraçı" "Sifarişçi"nin məruz qaldığı birbaşa xərcləri ödəyir.
Əhəmiyyətli Pozuntu dedikdə, bu Müqavilə çərçivəsində "İcraçı" tərəfindən, xüsusən keyfiyyət tələblərinə dair, "Sifarişçi"nin maraqları üçün əhəmiyyətli olan və ya ola biləcək və bu maraqlara mənfi təsir edən və ya edə biləcək, eləcə də "İcraçı"nın aradan qaldırmadığı və ya aradan qaldıra bilmədiyi

və ya tərəflər arasında razılaşdırılmış ağlabatan müddət ərzində aradan qaldırıla bilən, lakin aradan qaldırılmayan istənilən pozuntu başa düşülür.

6.2. "Sifarişçi"nin və ya "Sifarişçi"nin işçisinin, agentinin, subpodratçısının və ya məsləhətçisinin hər hansı hərəkət və ya hərəkətsizliyi ucbatından İcraçının xidmətlərinin hər hansı bir hissəsini yerinə yetirə bilməməsi və ya yubatması ilə əlaqədar birbaşa və ya dolayı yolla "Sifarişçi"yə dəyən, dəyəcək və ya dəymə ehtimalı olan heç bir ziyanla bağlı "İcraçı" məsuliyyət daşımır.

6.3. "Sifarişçi" konkret işin bu müqavilə üzrə "İcraçı"dan tələb etdiyi keyfiyyət tələblərinə cavab vermədiyini müəyyən edərsə, İcraçıya bu barədə yazılı formada məlumat verir və işlərin xarakterinə uyğun olaraq "Sifarişçi" tərəfindən müəyyən edilmiş müddət ərzində qüsurların aradan qaldırılmasını "İcraçı"dan tələb edir. "Sifarişçi" müvafiq qüsurlar aradan qaldırılanadək həmin iş üçün ödəməni tam və ya qismən rədd etmək hüququnu özündə saxlayır.

6.4. "İcraçı" bu müqavilə üzrə öhdəliklərinin icrasını üzrsüz səbəbdən gecikdirdiyi hər gün üçün bu Müqavilənin ayrılmaz tərkib hissəsi hesab olunan Qiymət Razılaşma Protokolunda göstərilən ümumi məbləğin 0,1%-i (sıfır tam onda bir faizi) miqdarında Sifarişçiyə cərimə ödəyir.

6.5. "Sifarişçi" bu Müqavilə üzrə edəcəyi ödənişi üzrsüz səbəbdən gecikdirdiyi hər gün üçün müvafiq ödənişin 0,1%-i (sıfır tam onda bir faizi) miqdarında "İcraçı"ya cərimə ödəyir.

6.6. Bu Müqavilənin 6.4 və 6.5-ci maddələrində nəzərdə tutulan cərimələrin məbləği müvafiq cərimənin hesablanması üçün əsas olan məbləğin 10%-dən (on faizindən) artıq ola bilməz.

6.7. Tərəflərin hər biri bu Müqavilə üzrə ödəməli olduğu cəriməni digər tərəfin yazılı xəbərdarlığını aldığı gündən etibarən 10 (on) bank günü ərzində ödənişi həyata keçirməlidir.

**Maddə 7. Mübahisələrin həlli**

7.1. Tərəflər arasında bu Müqavilənin icrası ilə bağlı yaranmış fikir ayrılıqları qarşılıqlı anlaşma, danışıqlar yolu ilə həll edilir.

7.2. Tərəflər mübahisəni onun yarandığı vaxtdan 30 (otuz) gün ərzində danışıqlar yolu ilə həll edə bilmədikdə və ya danışıqlar yolu ilə həll mümkün olmadıqda mübahisələr Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun məhkəmə qaydasında həll edilir.

**Maddə 8. Fors-major**

8.1. Əgər tərəflərdən biri hazırkı Müqavilə ilə üzərinə düşən öhdəliklərdən hər hansı birini fövqəladə, gözlənilməz və qarşısıalınmaz təbii hadisələr (yanğın, daşqın, epidemiya, pandemiya, epizotiya, zəlzələ, müharibələr, lakaut, müvafiq dövlət orqanının qərar və sərəncamları və sair) - fors-major halları səbəbindən icra edə bilməzsə, onda o, fors-major halının davam etdiyi müddət ərzində belə öhdəliyin icrasından azad edilir, bir şərtlə ki, bu tərəf fors-major halının baş verdiyi və ya ilk baş verdiyi andan sonra 5 (beş) gündən gec olmayaraq digər tərəfi fors-major halının baş verməsi barədə yazılı şəkildə xəbərdar etsin.

8.2. Fors major mövcud olması halları və ya onların nəticələrinin təsiri 30 (otuz) təqvim günündən artıq davam edərsə, Sifarişçinin İcraçını yazılı surətdə xəbərdar etmək şərtilə bu Müqaviləni müddətindən əvvəl ləğv etməyə şərtsiz hüququ vardır.

**Maddə 9. Məxfilik**

9.1. Tərəflər, bu Müqavilənin qüvvəyə minmə anına qədər edilən müzakirələr gedişində, habelə Müqavilənin qüvvədə olduğu müddət ərzində əldə edilən bütün (yazılı və ya şifahi) məlumatları məxfi saxlamağı və qorumağı öz üzərilərinə götürürlər.

9.2. Hər bir Tərəf öz öhdəsinə götürür ki, öz işçilərinin, nümayəndələrinin və ya bu Müqavilənin müəyyən hissəsini icra etmək üçün müqavilə bağladıqları digər tərəflərin bu Müqavilənin 9.1-ci maddəsinin müddəalarına əməl etmələri üçün zəruri olan hər bir tədbiri görəcəkdir.

9.3. Tərəflər bu Müqaviləyə xitam verildikdən sonra da məxfilik barəsində bu Müqavilənin 9.1 və 9.2-ci maddələrində göstərilən öhdəliklərdən azad olunmur. Tərəflərin məxfilik öhdəlikləri bu Müqavilədə

hansı şəkildə göstərilmişdirsə, bu Müqavilənin qüvvəsinə xitam verildikdən sonra beş (5) il ərzində o şəkildə də qüvvədə qalmaqda davam edir.
9.4. Məlumatı qəbul edən tərəf bu Müqavilənin məxfiliklə bağlı müddəalarını pozması nəticəsində məlumatı açıqlayan tərəfin məruz qaldığı xərclərə, itkilərə, zərərlərə, iddialara və/və ya məsrəflərə görə məsuliyyət daşıyır.

**Maddə 10. Digər şərtlər**

10.1. Bu Müqavilənin müddəalarının şərhi Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq aparılmalıdır.
10.2. Bu Müqavilənin şərtlərinin dəyişdirilməsinə Tərəflərin yazılı razılığı ilə yol verilir. Müqaviləyə edilən bütün əlavə və dəyişikliklər yazılı qaydada aparılır və Tərəflərin imza və möhürü ilə təsdiq edildiyi andan hüquqi qüvvəyə minir. Birtərəfli qaydada aparılan dəyişikliklər hüquqi qüvvəyə malik deyildir.
10.3. "İcraçı" "Sifarişçi"nin əvvəlcədən yazılı razılığı olmadan öhdəliklərinin yerinə yetirilməsini subicraçıya ötürə bilməz.
10.4. Tərəflər hüquqi ünvanlarının, bank rekvizitlərinin, telefon və faks nömrələrinin dəyişilməsi barədə 10 (on) gün ərzində digər Tərəfi xəbərdar edirlər.
10.5. Bu Müqavilə hər biri eyni hüquqi qüvvəyə malik olan iki nüsxədə, Azərbaycan dilində tərtib olunmuşdur. Nüsxələrdən biri "Sifarişçi"də, digəri isə "İcraçı"da saxlanılır.

**Maddə 11. Tərəflərin ünvan və rekvizitləri**

**"SİFARİŞÇİ"**

**Azərbaycan Respublikası**
**Prezidentinin İşlər İdarəsi**

VÖEN: 1700166771
H\h:
AZ86 CTRE 0000 0000 0000 0201 8501
Bank: Dövlət Xəzinədarlıq Agentliyi
VÖEN: 1401555071
Kod: 210005
M/h: AZ41 NABZ 0136 0100 0000 0000 3944
S.W.İ.F.T BIK: CTREAZ22

İşlər müdiri

_______________Ramin Quluzadə

M.Y.

**"İCRAÇI"**

**"M.Z." MMC**

VÖEN: 2001101121
H\h:
AZ11IBAZ40050019449061270216
Bank: ABB, YASAMAL FILIALI
VÖEN: 9900001881
Kod: 805562
M\h: AZ03NABZ01350100000000002944
S.W.İ.F.T BIK: IBAZAZ2X

Direktor

_______________Üzlüfət Qasımova

M.Y.

*Əlavə 1*

**Xidmətlərin göstərilməsi üzrə**
**"01" 12 2023-cü il tarixli 005-12/2023 nömrəli**
**XİDMƏT MÜQAVİLƏSİNİN**

**QİYMƏT RAZILAŞMA PROTOKOLU**

Bakı şəhəri "01" 12 2023-cü il

Biz, aşağıda imza edənlər, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi (bundan sonra - "Sifarişçi") adından Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə və
"M.Z." Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra - İcraçı) adından direktor Üzlüfət Qasımova, Tərəflər arasında bağlanmış "01" 12 2023-cü il tarixli 005-12/2023 nömrəli Xidmət Müqaviləsi əsasında Xidmətlərin göstərilməsi üzrə aşağıdakı razılığa gəldik:

| № | Malın/işin/xidmətin adı | Açıqlama | Ölçü vahidi | Miqdarı | Vahidin qiyməti (manatla) | Ümumi dəyər (manatla) |
|---|---|---|---|---|---|---|
| 1 | Led ekranın icarəsi | Ölçü: 6x4m, PX 3,9p | kv.m | 24 | 80,00 ₼ | 1 920,00 ₼ |
| | | | | | **Cəmi:** | **1 920,00 ₼** |
| | | | | | **ƏDV 18%:** | **345,60 ₼** |
| | | | | | **Yekun məbləğ (ƏDV daxil):** | **2 265,60 ₼** |

Bu Qiymət Razılaşma Protokolu biri "Sifarişçi", digəri isə "İcraçı"da saxlanılmaqla, 2 (iki) nüsxədə tərtib edildi, imzalandığı gündən qüvvəyə minir və "01" 12 2023-cü il tarixli 005-12/2023 nömrəli Xidmət Müqaviləsinin ayrılmaz tərkib hissəsi hesab edilir.
Tərəflərin adı və imzası:

**"SİFARİŞÇİ"** **"İCRAÇI"**

| **AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ** | **"M.Z." MMC** |
|---|---|
| **Ramin Quluzadə, İşlər müdiri** | **Üzlüfət Qasımova, Direktor** |
| İmza: | İmza: |
| M.Y | M.Y |

Azərbaycan Respublikası «M.Z.» Məhdud Məsuliyyətli Cəmiyyəti Limited Liability Company Azerbaijan Republic

İşlər müdirinin müavini Leyla Məmmədova

Maliyyə şöbəsinin
müdiri Gülru Hüseynova

Müqavilələrin idarə olunması
və hüquq şöbəsinin müdiri Ülviyyə Təhməzli

Təchizat şöbəsinin
Texniki-təchizat sektorunun müdiri-şöbə müdiri v.i.e. Fuad Musazadə